*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 130-136*

https://doi.org/10.62837/2025.9.130

**UOT: 811.111.**

**QƏDİROVA NİLUFƏR ƏKBƏR QIZI**
**Azərbaycan Universiteti**
**https://orcid.org/0009000548106642**
**nilufar3010@gmail.com**

# İNGİLİS MODERNİZMİNİN BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə Birinci Dünya müharibəsindən sonra ingilis modernizminin formalaşması və onun bədii-estetik xüsusiyyətləri araşdırılır. Modernist yazıçılar Viktoriya dövrünün rasional və harmonik dünyagörüşünə qarşı çıxaraq ənənəvi süjet və düzxətli təhkiyədən uzaqlaşmış, fərdin daxili dünyasını, şüuraltı proseslərini və emosional təcrübəsini poetik şəkildə ifadə etmişlər. Şüur axını texnikası, fraqmental təhkiyə və mifə istinad əsərlərin əsas eksperimental üsullarını təşkil etmiş, yadlaşma, mənasızlıq və psixoloji parçalanma mövzularını vurğulamışdır. V.Vulf, C.Coys və T.S. Eliot kimi müəlliflər insan şüurunun mürəkkəbliyini və müasir cəmiyyətin psixoloji təsirlərini bədii şəkildə təqdim etmişlər. İngilis modernizmi yalnız ədəbiyyatda forma və üslub inqilabı yaratmamış, həm də çağdaş insanın mənəvi və psixoloji dünyasını yenidən təcəssüm etdirərək XX əsr estetik düşüncəsinə əhəmiyyətli təsir göstərmişdir.

**Açar sözlər:** ingilis modernizmi, fraqmental təhkiyə, dekadans, şüur axını, mif

**Ключевые слова:** английский модернизм, фрагментарное повествование, декаданс, поток сознания, миф

**Keywords:** english modernism, fragmentary narrative, decadence, stream of consciousness, myth

Birinci Dünya müharibəsinin yaratdığı dərin mənəvi böhran və Viktoriya dövrünün rasional-humanist dəyərlərinə olan inamın sarsılması modernizmin geniş miqyaslı mədəni-fəlsəfi və estetik cavab kimi təşəkkül tapmasına gətirib çıxarmışdır. İngilis ədəbiyyatında modernizm ənənəvi, xətti süjet modelindən uzaqlaşaraq mürəkkəb ifadə texnikalarının, çoxqatlı temporal və psixoloji quruluşların tətbiqi vasitəsilə parçalanmış insan təcrübəsini və qeyri-sabit reallığı bədii şəkildə təcəssüm etdirməyə yönəlmişdir.

Ədəbi tənqidçi Qrem Hyu "Təsvir və təcrübə" kitabında qeyd edir ki, "1910-cu ildən İkinci Dünya Müharibəsinə qədər ingilisdilli ədəbiyyatda baş verən inqilab, yüz il əvvəl Romantizm inqilabı qədər diqqətəlayiq idi… lakin hələ də ona ad verilməyib" [2, s. 95].

Piter Çaylds isə modernizmi tərəqqi, nizam və əminlik kimi prinsiplərə əsaslanan Viktoriya və romantik dünyagörüşlərinə qarşı intellektual və mədəni bir etiraz forması kimi səciyyələndirir [1, s. 24].

1920-ci illərdə ingilis ədəbiyyatında istiqamətlərin və yaradıcılıq qüvvələrinin kifayət qədər aydın diferensiasiyası müşahidə olunurdu, 1930-cu illərdə isə bu fərqlənmə daha da qabarıq hal aldı. Əksər yazıçılar mövcud həyat formalarının, əxlaqi normaların və dəyərlər sisteminin tənəzzülünü dərindən hiss edirdilər. Bəziləri ictimai dəyişikliklərə və inqilabi ideyalara qarşı çıxmağa çalışır, digərləri isə tarixi şəraitin doğurduğu mürəkkəb problemlərdən xilas yolunu qaçışda – şəxsi və daxili dünyaya qapanmaqda görürdülər.

Məhz bu dövrdə "eskapizm" termini yaranır və ictimai-siyasi narahatlıqlardan uzaqlaşıb şəxsi hiss və təcrübə dünyasına yönəlmə meyilini ifadə edirdi. Müharibədən sonrakı dövrün yazıçılarında eskapizm müxtəlif formalarda təzahür edir və fərqli bədii nəticələr doğururdu. Əsrin əvvəlllərində yazıb-yaratmış bütün ingilis müəllifləri yeni bədii ifadə vasitələri və formalar axtarışında idilər, lakin əksər hallarda bu axtarışlar dekadent meyillərin güclənməsi ilə nəticələnirdi.

Yeni cərəyanın əsas xüsusiyyəti incəsənətin ətraf mühitdən və ümumi qəbul edilmiş dəyərlərdən ayrılması, "sənət sənət üçündür" prinsiplərinin tətbiqi olmuşdur.

Dekadansın İngiltərədə təzahürü prerafaelilər, simvolizm və estetikizm kimi naturalist və estetik istiqamətlərdə olmuşdur. M.E.Yelizarova hesab edir ki, dekadent meyllər 1848-ci ildə yaranan "Prerafaelilər Birliyi"nin yazıçı və şairlərinin yaradıcılığında aydın şəkildə görünür. Bu birlik əvvəlcə Qent və Mille rəssamlarını, şairə Kristina Rossetti və tənqidçi Uilyam Maykl Rossettini birləşdirmişdir. Rəssam və şair Dante Qabriel Rossettinin rəhbərlik etdiyi prerafaelilər romantik etirazların estetik ifadəsi kimi sənətdə səmimiyyətin, təbiətə yaxınlığın və duyğuların ifadəsinin vacibliyini vurğulayırdılar. Yazıçılar, əsasən lirik şairlər ilk olaraq "dekadentçilər" adı ilə tanınmış, lakin özlərini çox vaxt "simvolist" adlandırmışlar. Onların yaradıcılığı fərqində olmasalar da, qeyri-müəyyən, irrasional şəkildə ruhani aləmə yönəlmişdi. İngilis ədəbiyyatında bu bədii düşüncə tərzi D.Flekker və U. Yeytsin poeziyası üçün xarakterik olmuşdur. Birinci dünya müharibəsinin sonundan 1929-1930-cu illərin iqtisadi böhranına qədər olan dövrdə ingilis modernist ədəbiyyatının başlıca xüsusiyyəti ictimai problemlərdən məqsədli şəkildə uzaqlaşma, fərdin daxili dünyasına qapanma, insan hisslərinin, təəssüratlarının və şüuraltı reaksiyalarının dərindən tədqiqi olmuşdur. Bu dövrün ədəbiyyatı dərin narazılıq, mənəvi çaşqınlıq və inamsızlıq hissləri ilə yoğrulmuş, ümumi tonuna skeptisizm və məyusluq hakim olmuşdur. "İtirilmiş nəsil"in yazıçıları həyatın bütün mürəkkəbliyi və tamlığı ilə əksini vermək cəhdlərindən imtina edərək, "daxili dünyaya" qapanmaqla öz bədii sistemlərinin dağılmasına gətirib çıxarırdılar. XX əsrin 20-ci illərində "itirilmiş nəsil" adlandırılan yazıçılarla yanaşı, digər ədiblər arasında da müxtəlif formal axtarışlar geniş yayılmışdı. Bu eksperimental axtarışların ən səciyyəvi formalarından biri "şüur axını" idi. Modernizmin eksperimental mərhələsində yazıçılar ənənəvi süjet və təhkiyə formalarından imtina edərək, "şüur axını" texnikasını fərdiliyin dərkində yeganə bədii vasitə kimi qəbul etdilər. Bu, sənətkarı mifə əsaslanan bədii

modelə yönləndirirdi, mif isə əsərin strukturunu formalaşdıran əsas prinsiplərdən birinə çevrildi (C.Coysun "Uliss" əsəri, T.S.Eliotun poeziyası və s.).

"Şüur axını" termini məşhur amerikalı psixoloq Uilyam Ceyms tərəfindən elmi dövriyyəyə gətirilmişdir. O, bu anlayışı ilk dəfə "Psixologiyanın əsasları" adlı əsərində işlətmişdi. U.Ceyms düşüncəni fasiləsiz hərəkətdə olan bir axın kimi qəbul edərək yazırdı: "Şüur heç vaxt parçalanmış şəkildə görünmür. 'Zəncir' və ya 'ardıcıllıq' kimi ifadələr şüurun mahiyyətini əks etdirmir, çünki o, fasiləsiz şəkildə axır" [4, s. 310]. Tədqiqatçı həmçinin "düşüncə axını", "şüur axını", "subyektiv həyat axını" kimi anlayışlardan istifadə edərək qeyd edirdi ki, bu axın insan "mən"inin təzahürü, onun ifadəsi və ya ekvivalenti kimi başa düşülməlidir: "'Mən'in bütövlüyü daxili boşluqlarla kəsilə bilməz; elə buna görə də indiki düşüncə anı, zaman baxımından aralıq olsa da, keçmişin bəzi hissələri ilə özünü ayrılmaz hiss edir" [4, s. 311].

"Şüur axını" texnikası yalnız daxili monoloqla deyil, həm də daxili analiz və sensor təəssürat anlayışları ilə əlaqələndirilir. Daxili analiz XIX və XX əsrlərin realist yazıçılarında qəhrəmanın psixoloji təhlilini dərinləşdirmək üçün əsas vasitələrdən biri kimi çıxış etmişdir və bu gün də realizmin ifadə formalarının mühüm tərkib hissəsidir. Sensor təəssürat isə Amerika ədəbiyyatşünaslığında daxili monoloqa yaxın, lakin ondan daha fraqmentar bədii üsul kimi müəyyənləşdirilir. Daxili monoloq insan düşüncələrinin fəal şəkildə formalaşdığı prosesin birbaşa sitatı kimi təqdim olunduğu halda, sensor təəssürat daha çox diqqət mərkəzindən uzaqda qalan, passiv şüur sahəsində baş verən təəssüratları əks etdirir. Tədqiqatçıların fikrincə, "şüur axını romanı" hadisələrin və süjetin deyil, qəhrəmanın şüurundakı düşüncə axınının, hisslərin, assosiasiyaların və xatirələrin fasiləsiz inikasına əsaslanan roman növüdür. Belə romanlarda obrazların şüuru bir növ "ekran" və ya "lent" kimi təqdim olunur ki, burada düşüncələr spontan şəkildə, reminissensiya (xatırlama) və qabaqcadan duyum elementləri ilə "axır" [3, s. 4].

Beləliklə, "şüur axını" texnikası tədqiqatçılar tərəfindən insanın fərdi həyatına və psixoloji aləminə dərindən nüfuz etməyə imkan verən bədii metod kimi dəyərləndirilir. O, insan təfəkkürünün rasional, emosional və intuisiya-şüuraltı səviyyələrini birləşdirən mürəkkəb daxili fəaliyyətin bədii inikasıdır. Bu texnika yazıçılara qəhrəmanlarının düşüncə, hiss və xatirələrini, həmçinin şüuraltı təbəqədə cərəyan edən prosesləri mümkün qədər orijinal və təbii şəkildə təqdim etməyə imkan verir. Modernist estetikaya əsaslanan yazıçılar insan həyatını mahiyyətcə mənasız və perspektivsiz proses kimi qəbul edərək hər cür ictimai dəyişiklik və mübarizəni faydasız hesab edirdilər. Bu yanaşma nəticəsində insan obrazı təkcə aciz deyil, həm də bu acizliyə faciəvi şəkildə məhkum edilmiş varlıq kimi təqdim olunurdu. Məhz bu ziddiyyətin dərkində XX əsrin 20-ci illərinin böyük yazıçılarının, xüsusilə də Ceyms Coysun yaradıcılığının açarı gizlənir. C.Coysun yaradıcılığında cəmiyyət daxilində şəxsiyyətin dağılması və sənətdə bədii obrazın parçalanması prosesi bədii şəkildə əks

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 130-136*

olunur. Leopold Blumun daxili aləmi assosiasiyalar, alluziyalar, gözlənilməz və qəribə ifadə birləşmələri, planlaşdırılmış və spontan elementlərlə parçalanmış olsa da, Dublinin görünən və kifayət qədər dəqiq formalaşmış xarici dünyasını, adi insanın həyat kontinuitetini yaradır. Odisseyin səfərləri illərlə davam edirdisə, Blumun dolaşmaları bir gün ərzində baş verir, lakin romanın özü uydurma xarakter daşıyır və mifdən istifadə, reallığın digər maddi və mənəvi ölçülərlə bərpası təsiri bağışlayır. Romanda eyni gün ərzində göstərilən şüur panoraması yaradıcılıq və bədii düşüncə intensivliyini nümayiş etdirir. Adi qəhrəman yanında, hər günün qəhrəmanı kimi ümumiləşdirilmiş kütləvi şüur ilə yanaşı, yaradıcı şüuru təmsil edən başqa bir obraz mövcuddur ki, bu da qeyri-adi modernist mənzərəni yaradır. Gündəlik və adi hadisələr mifləşir: Blum qədim epik qəhramana çevrilir, Stiven Dedalus zəngin daxili dünyası və təşkil edilmiş düşüncə sistemi ilə roman sənətinin imkanlarını nümayiş etdirən sonsuz kontekst yaradır. Parodiya və pastiş, ciddi və ironik müxtəlif dil səviyyələri süjetin olmamasını və xarici dünyanın nisbi təbiətini kompensasiya edir.

"Uliss" romanının tədqiqatçısı S. Xoruji əsərin parodiya və pastiş xarakterini onun ən önəmli cəhəti hesab edir. Homerin "Odisseya" əsərinin mətnini dəyişdirməklə müasir bədii nümunə yaradan C.Coys pastiş elementlərindən geniş istifadə edir. Bu, eposun süjetinin, qəhrəmanlarının, personajlarının, təsvir vasitələrinin istehzadan isitifadə etməklə yenidən dərk olunmasında özünü büruzə verir. Əsərini adlandırmaqdan ötrü qədim yunan sözünə (Odissey) deyil, onun latın (Uliss) variantına müraciət etməklə Coys özü ilə Homer arasında məsafə yaradır və əsərinin parodiyadan daha çox pastiş səciyyəsi daşıdığını vurğulayır [5, s. 236-237].

Modernist ədəbiyyatın mərkəzi mövzusu olan yadlaşma və məyusluq parçalanmış həyat yaşayan fərdlərin psixoloji təcrübəsini əks etdirir. Bu yadlaşma T.S.Eliotun "C.Alfred Prufrokun sevgi nəğmələri" əsərində açıq şəkildə görünür. Baş obraz Prufrok dünyadan təcrid olunmuş və həyatı ilə bağlı mənasızlıq hissi yaşayan bir obraz kimi təqdim edilir. Onun monoloqu öz varlığı ilə bağlı dərin məyusluq duyğularını əks etdirir. Virciniya Vulfun "Xanım Dellouey" əsərində isə müəllif xarakterlərinə daxili psixoloji mübarizə elementlərini əlavə edərək, müharibədən qayıdan əsgərlərin və onların mülki həmkarlarının yaşadıqları post-müharibə məyusluğunu ön plana çıxarır. Romanın müxtəlif vurğuları, Klarissa Delloueyin xarici sosial həyatı ilə Septimus Smitin daxili travma mübarizəsi arasındakı fərqi göstərir və bu vasitə ilə müharibənin və cəmiyyətin gözləntilərinin emosional təcrid və ümidsizliyə səbəb olduğu aydın olur. V.Vulf modernistləri əvvəlkilərdən fərqləndirən xüsusiyyəti "Müasir bədii nəsr" əsərində belə ifadə edir: "Məsələn, adi bir gündə adi şüuru araşdırın. Şüur sadə, fantastik, keçici, dəmir kimi kəskin şəkildə yadda qalan saysız-hesabsız təəssüratlar qəbul edir. Bunlar şüura fasiləsiz axınla daxil olur, həyatın forması kimi formalaşır... Həyat simmetrik yerləşmiş işıqlar zənciri deyil, şüur doğulandan ölənədək bizi əhatə edən yarı şəffaf, parlaq auradır.

Yazıçının vəzifəsi bu naməlum, dəyişkən və tutarsız ruhu dəqiq və səmimi şəkildə əks etdirmək deyilmi?” [7, s. 286].

Ümumiyyətlə, Virciniya Vulfun yaradıcılıq axtarışları, demək olar ki, ifrat səviyyədə “həyat həqiqətinə” xidmət ideyasına tabe edilmişdi. Onun məqsədi həyatın ən incə təfərrüatlarını tutmaq, onu bədii əsərdə mümkün qədər geniş həcmdə və dəqiqliklə saxlaya biləcək ifadə vasitələrini işləyib hazırlamaq idi. Əsas məsələ yalnız həyatın saysız-hesabsız “kəpənəklərini” tutmaq deyil, həm də onları canlı şəkildə, yəni həyatın öz hərəkəti və nəfəsi ilə birlikdə göstərməkdən ibarət idi.

Bütün ingilis modernist yazıçılar ölkələrində bir növ sürgün həyatı yaşayıb, anlaşılmamaq, laqeyd və ikili situasiyalarla üzləşmiş, çox vaxt həyatları faciəli şəkildə qırılmışdır. Bu baxımdan modernistləri birləşdirən xüsusiyyətlərdən biri möhkəm əxlaqi müəyyənliyin rədd edilməsi idi. D.H. Lourens “Niyə roman vacibdir” essəsində yazırdı: “Mən heç vaxt öz bütövlüyümü, fərdiliyimi, ‘mən’imi tam anlamayacağam. Mənə bunu bilməyə imkan verilmir. “Mənim” haqda danışmaq mənasızdır: bu sadəcə özüm haqqında müəyyən təsəvvür yaratmaq və sonra onu modelə uyğun “mən” qurmağa cəhd etmək demək olardı. Bu isə uğursuzluq deməkdir” [6].

Bu baxımdan, əxlaq sənəti öldürür, ona müxtəlif zamanlarda ictimai və fərdi davranış modelləri təqdim edir, nəticədə insan həyat eşqini itirir. Elmi və texnoloji inqilablar çağında həyat və insanın dehumanizasiyası qorxusu ingilis modernistlərini insan təbiətinə eksperimental yanaşmağa sövq etmişdir. Romantik nostalji təbiətə qarşı, insanın ona daimi bağlılığını hiss etdiyi güclü enerji mənbəyi kimi baxışı XIX əsrin sonuna və müasir insan ilə təbiət arasındakı getdikcə dərinləşən uçuruma təbii reaksiyası olmuşdur. Modernizm eyni zamanda etik prinsiplərini Viktoriya dövrünün rasionalizm və nikbinlik anlayışlarına qarşı formalaşdırmışdır. Müharibənin zərbələrinə, elmi kəşflərə və mövcud institutlara inamın sarsılmasına dözməyən nikbinliklər, sənayeləşmə ilə bağlı ümidlər Viktoriya dövrünün ləyaqət, mənəviyyat və dini inanc dəyərlərinə qarşı sarsılmışdır. Buna görə də modernist ədəbiyyat mənəvi ikilik, sosial normaların çökməsi və həyatın boşluğu kimi məsələləri əhatə edirdi. Ceyms Coys “Uliss” əsərində müqəddəs ilə profan arasında sərhədləri qəsdən bulanıqlaşdırır, yüksək və aşağı incəsənət anlayışları sual altına alır. C.Coysun yanaşmasında gündəlik həyatın adi detalları ilə klassik mifoloji motivlər eyni əhəmiyyət kəsb edir. Bütöv dəyərlər sisteminin dağılması əsərin süjet quruluşu, simvolizmi və eksperimental yazı texnikasında əks olunur. Coysun mifoloji mövzulara istinadı isə Dublində adi bir günün banal hadisələrini əks etdirir və qəhrəmanlıq anlayışının inandırıcılığına qarşı məyusluğu ifadə edir. Aydındır ki, eyni dövrə mənsub olsalar da, V.Vulf və C.Coys müxtəlif tip müəllif özünüdərki ilə fərqlənirdilər. V.Vulfun yaradıcılıq şüurunun dominant xüsusiyyəti introspeksiya idi. Bu, həm onun bədii üsullarının əsas mənbəyinə, həm də bu üsulların həyata keçirilməsinin əsas alətinə çevrilmişdi. C.Coys isə əksinə, refleksiya qabiliyyəti ilə

seçilirdi. Oxşar yanaşma T.S.Eliotun “Barsız torpaq” poemasında da müşahidə olunur. Burada həyatın məna daşıyan ardıcıllığının dağılması təsvir edilir, fraqmental obrazlar, mədəni istinadlar və çoxsəsli narrativ vasitəsilə əks olunan dünya ümid, nizam və istiqamətdən məhrumdur. Poema modernistlərin Viktoriya dövrünün rasional və harmonik kainata inamına etirazını əks etdirir və dini, mənəvi və mədəni dəyərlərin səlahiyyətini itirdiyini göstərir. Modernist yazıçılar urbanizasiya və sənayeləşmənin insan və cəmiyyət üzərindəki təsirinə yüksək həssaslıq göstərirdilər. Yadlaşma və parçalanma nəticəsində şəhər öz səs-küyü və anonimliyi ilə simvolik məna ifadə edirdi. Virciniya Vulf “Xanım Dellouey” və T.S.Eliot “Barsız torpaq” əsərlərində şəhəri səhnə kimi istifadə edərək müasir həyatın təcridedici aspektlərini ön plana çıxarırlar. V.Vulfun London təsvirində şəhər xarici baxımdan aktiv, lakin daxili olaraq boş bir məkandır, insanlardakı tələsik və soyuq münasibət emosional uçurum yaradır. Eynilə Eliotun poeziyasında şəhər mənasız bir səhraya çevrilmişdir, burada insanlar həyatın mənası ilə əlaqəni itirirlər. Yekun olaraq deyə bilərik ki, ingilis modernizmi sənətdə insan şüurunun mürəkkəbliyini, daxili aləmin fraqmental xarakterini və fərdi təcrübənin çoxqatlılığını ön plana çıxardı. “Şüur axını”, fraqmental təhkiyə və mifə qayıdış kimi eksperimental üsullarla fərdin şüuraltı təbəqələrini, emosional və psixoloji vəziyyətlərini əks etdirən yazıçılar eyni zamanda XX əsr böhranının səbəb olduğu yadlaşmanı və mənasızlığı təsvir edərək çağdaş insanının dünyagörüşünü poetik və bədii şəkildə təqdim edirdilər. Nəticədə, ingilis modernizminin estetik yeniliklər və ədəbi eksperimentlərlə XIX əsrin ənənələrini qıraraq yeni ifadə vasitələri və poetik formalar yaratması yalnız ədəbiyyatda forma və üslub baxımından inqilab yaratmadı, həm də insan təcrübəsinin, yadlaşmanın və müasir cəmiyyətin mürəkkəbliyinin poetik təcəssümünü təmin edərək XX əsr estetik düşüncəsinə əsaslı təsir göstərdi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Childs P. Modernism. London:Routledge. 2000. 24 p.
2. Hough G. Image and experience. London, 1960. 228 p.
3. Ивашева В.В. Английская литература XX век. Москва: из-во «Просвещение», 1967. 469 c.
4. James W. The Principles of Psychology. Dover Publications. 1950. 720 p.
5. Quliyev Q. Ədəbi cərəyanlar və istiqamətlər. Bakı: OL NPKT. 2019. 260 s.
6. Lawrence D.H. Why the Novel Matters. 1936. URL: http://individual.utoronto.ca/amlit/why_the_novel_matters.htm
7. Зарубежная литература XX века/ Под ред. Л.Г. Андреева. 2-е изд. испр. и доп. М.: Высш. шк., 2004.559 с.

***Nilufar Akbar Gadirova***

## SUMMARY
## ARTISTIC-AESTHETIC CHARACTERISTICS OF ENGLISH MODERNISM

This article examines the development of English modernism after the First World War and its artistic and aesthetic characteristics. Resisting the rational and harmonious worldview of the Victorian era, modernist writers departed from traditional plots and linear narratives and poetically expressed the individual's inner world, subconscious processes, and emotional experiences. Stream-of-consciousness techniques, fragmented narratives, and appeals to myth constituted the main experimental methods of their works, emphasizing themes of alienation, meaninglessness, and psychological fragmentation. Authors such as Woolf, Joyce, and Eliot artistically conveyed the complexity of human consciousness and the psychological effects of modern society. English modernism not only revolutionized literary form and style but also exerted a significant influence on 20th-century aesthetic thought, reimagining the spiritual and psychological world of modern man.

***Нилуфар Акбар Гадирова***

**РЕЗЮМЕ**

**ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИЕ ОСОБЕННОСТИ АНГЛИЙСКОГО МОДЕРНИЗМА**

В статье рассматривается становление английского модернизма после Первой мировой войны и его художественно-эстетические характеристики. Писатели-модернисты, выступая против рационального и гармоничного мировоззрения викторианской эпохи, отошли от традиционного сюжета и линейного повествования и поэтически выразили внутренний мир личности, подсознательные процессы и эмоциональные переживания. Техника потока сознания, фрагментарное повествование и обращение к мифу составили основные экспериментальные методы произведений, подчеркивая темы отчуждения, бессмысленности и психологической фрагментации. Такие авторы, как В. Вулф, Д.Джойс и Т.Элиот, художественно представили сложность человеческого сознания и психологические эффекты современного общества. Английский модернизм не только произвел революцию в форме и стиле в литературе, но и оказал значительное влияние на эстетическую мысль XX века, перевоплотив духовный и психологический мир современного человека.

***Rəyçi: f.e.d., prof. Q.Quliyev***